**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 279/1** **30 sentyabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planına əlavələrin edilməsi barədə**

Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) nəzərdə tutulan tədbirlərin icrası barədə" 2016-cı il 06 sentyabr tarixli 278/4 saylı qərarının 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının 2016-cı il üzrə iş planına təklif olunan əlavələri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planına təklif olunan əlavələr təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının struktur bölmələrinin və Palatanın Şurası yanında müvafiq Komitələrin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, Z.Hüseynov, E.İbrahimov, F.Mustafayev, A.Əliyev) tapşırılsın ki, Auditorlar Palatasının 2016-cı il üzrə iş planına olunan əlavələrin vaxtında və keyfiyyətlə icra edilməsini təmin etsinlər.
3. Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.2.4-cü "Audit" dərs vəsaitinin təkrar nəşri" bəndinin icrası "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsi qəbul edildikdən sonra Palatanın iş planına daxil edilsin.
4. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın mətninin və Palatanın 2016-cı il üzrə iş planına olunan əlavələrin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**